*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 300-304*

https://doi.org/10.62837/2025.2.300

**İMAMOVA SONAXANIM QURBAN QIZI**
AzTU "Humanitar fənnlər"kafedrasının baş müəllimi
e-mail:imamlisona46@gmail.com
H.Cavid 25.

# ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASI VƏZİYYƏT ƏDƏBİYYAT İNCƏSƏNƏT VƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI

**XÜLASƏ:**

Azərbaycan mədəniyyət tarixi və azəbaycançılıq. Azərbaycan mədəniyyətinin əsas ilhamverici qüvvəsi Azərbaycan xalqı və azərbaycançılıq ideologiyasıdır. Azərbaycançılıq ideologiyasının şüurlarda, yaddaşlarda yer tutması üçün minillər boyu mədəniyyətimiz çərçivəsində böyük işlər görülüb. Azərbaycançılıq mədəniyyətimizin hər bir sahəsində özünü göstərir.

Azərbaycan mədəniyyəti böyük tarixi inkişaf yolu keçərək günümüzə qədər gəlib çatıb. Milli-mənəvi dəyərlər, maddi nümunələr zaman-zaman cilalanaraq dünyanın ən zərif, füsunkar mədəniyyət örnəkləri kimi qəbul edilir.

Sənətşünaslar yazır ki, Azərbaycanda yaşayan xalqların və tarixən mövcud olmuş dövlətlərin mədəniyyəti zaman-zaman öyrənilib. Azərbaycanda mədəniyyətin inkişafına tarixən regionda baş verən ictimai-siyasi hadisələr və Azərbaycanın Şərqlə Qərbi birləşdirən ərazidə yerləşməsinin təsir etdiyi qeyd edilən yazılı mənbələrdə vurğulanır ki, XIV-XV əsrlərdə Azərbaycanda yaşayan əsas xalqın-Azərbaycan türk etnosunun formalaşması ilə Azərbaycan mədəniyyəti inkişaf edib.

Tədqiqatçılar yazır ki, stabil mərkəzləri olmayan bu mədəniyyəti bəzi dövrlərdə Osmanlı mədəniyyətindən fərqləndirmək çətindir. XV əsrdə Azərbaycan mədəniyyətinin iki mərkəzi formalaşır: Cənubi Azərbaycan və Aşağı Qarabağ. XVI-XVIII əsrlərdə bu mədəniyyət mərkəzlərinin formalaşması başa çatır. Məlumatlara görə, XIV-XV əsrlərdəki Azərbaycan mədəniyyətinin mənbəyindən danışılanda yadda saxlanmalıdır ki, Azərbaycan ədəbiyyatı və mədəniyyətin digər hissələri ayrılmaz surətdə dililə bağlıdır. Yazılanlara görə, maddi mədəniyyət isə əhalinin türkləşməsindən əvvəl ortaya çıxıb.

Bu barədə Azərbaycanın mədəniyyətşünas alimlərinin, tarixçilərin, ədəbiyyatşünasların, yerli və xarici alimlərin yazılarına, mənbə və məxəzlərdə yer alan faktlara istinadən Ensiklopediyanın tərtib etdiyi "Azərbaycan mədəniyyəti" məqaləsində yazılır. Məqalədə yazılır ki, Azərbaycan müstəqil olduqdan sonra Azərbaycan mədəniyyətinin İran mədəniyyəti və ərəb mədəniyyəti ilə güclü əlaqələri saxlanıb: "Onların ortaq dini və ortaq mədəni-tarixi ənənələri var.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 300-304*

Arxeoloji tapıntılar və müasir dövrə qədər gəlib çatmış maddi abidələr Azərbaycan ərazisində qədim dövrdə, həmçinin, Qafqaz Albaniyası dövründə mədəniyyətin inkişaf etdiyini göstərir. Azərbaycanda islamın yayılması ilə islam mədəniyyəti inkişaf edir, məscidlər, mədrəsələr, türbələr tikilir, əsasən dekorativ incəsənətin ornamental forması təşəkkül tapır.Azərbaycan inkişaf etmiş və dünyəvi islam cəmiyyətləri arasındadır. Opera, teatr tamaşaları və demokratik respublikası olan ilk müsəlman ölkəsi olmaqla birlikdə Azərbaycan bu gün dünyəviliyin ən çox dəstəkləndiyi müsəlman ölkələrindən biridir".

Açar sözlar: hakimiyyət, ictimai-siyasi vəziyyət, tarix, mənbə,inkişaf.
Azərbaycanın adının hansı tarixi dövrdə meydana çıxdığını araşdıran alimlər bildirir ki, "Azərbaycan" toponimi orta dövr fars dilində Atropatena adlı qədim dövlətin adı olan Aturpatakandan əmələ gəlib. Yazılanlaragörə,

Makedoniyalı İsgəndərin işğalından sonra Əhəmənilər imperiyasının Midiya satrapı Atropatın öz çarlığının əsasını qoyduğu Midiyanın şimalı Atropatena adlandırılıb. Adın orijinalının mənbəyi bölgədə bir vaxtlar geniş yayılmış Zərdüşt dinidir və mənası "od"deməkdir.

Məqalədə həmçinin,I Şah Təhmasibın hakimiyyəti dövründə ictimai-siyasi vəziyyətin öyrənilməsinə həsr edilmişdir. Tədqiqat əsəri bizə dövrün tarixi panoramasını təqdim edir. Bu mənbələr arasında Əmir Mahmud Xandəmirin "Zeyl-e tarix-e Habis-us siyar" əsəri də tədqiqata daxil edilmişdir.

Şah Təhmasibin hakimiyyətinin birinci yarısı qızılbaş başçıları arasında mövcud olan çəkişmələri aradan qaldırmağa, ölkənin şərq və qərb sərhədləri üstündə gedən müharibələrə son qoymağa sərf olunmuşdur.

Səfəvi dövlətinin ciddi düşmənləri hesab edilən özbəklər və osmanlılar Şah Təhmasibin hakimiyyət başına keçdiyi ilk vaxtdan Səfəvi dövlətinə qarşı hücumlara başladılar. Nəhayət 935-ci (1529) ildə Şah Təhmasiblə Übeydulla xan arasında baş verən "Cam" döyüşündə Übeydullah xan ciddi şəkildə məğlubiyyətə məruz qaldı. Bu məğlubiyyətdən sonra Xorasan bir müddət özbək hücumlarından xilas oldu.[2.s.135]

Qərb cəbhəsində Şah Təhmasibin Sultan Süleyman Qanuni kimi güclü bir rəqibi var idi. Osmanlı sultan atasının ələ keçirdiyi Avropa, Qərbi Aşiya və Şimali Afrikada geniş ərazilərə sahib idi. Əlbəttə, o özü də davamlı olaraq bu fəthlərin sərhədlərini genişləndirirdi. Avropa imperatorlarının zəifliyi və dağınıqlığı ona osmanlı ordularını Vyana darvazalarına aparıb çıxarmağa imkan vermişdi. Səfəvi dövlətində qızılbaş başçıları arasında davam edən ixtilaf və çəkişmələr ona qərbə hücum etmak üçün zəmin yaradırdı.

Osmanlı qoşunları Azərbaycana bir neçə dəfə hücum etmişdilər. Şah Təhmasib kəndləri xaraba qoymaq, sursatları məhv etmək, həyat imkanlarını dağıtmaqla osmanlıların hücumlarının genişlənməsinə mane olurdu. Paytaxt Təbriz şəhəri osmanlı sərhədlərinə yaxınlıq səbəbi ona təhlükələrə məruz qaldığı, davamlı olaraq özbəklərin hücumlarına məruz qalan Xorasandan uzaq olduğu üçün Şah Təhmasib

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 300-304*

1555-ci ildə paytaxtı Təbrizdan Qəzvinə köçürdü. Bu tarixdən 1598-ci ildə (I Şah Abbas paytaxtı İsfahan olmaqla) Səfəvi dövlətinin paytaxtı Qəzvin olmuşdur.

Mahammad Humayunun (Moğal hökmdarı) və Bayazidin (osmanlı şahzadəsi) Səfəvi dövlətinə sığınması Şah Təhmasibin dövründə baş vermiş ən mühüm hadisə olmuşdur. Hər iki hadisə Səfəvi dövləti ilə Moğal dövləti və Osmanlı imperiyası arasında ciddi,yaxın münasibətlərə səbəb olmuşdur.

Şah Təhmasib sakit təbiətli olması ilə yanaşı sadə həyat tərzi sürürdü.O, təkəbbürlü və eqoizmdan uzaq bir adam idi. Məişətdə o qızı ilə də məsləhətləşirdi. Çoxları onun şəxsiyyəti haqqında qeyri-düzgünlüyə yol vemıişlər. Belə ki, Venesiyalı

səfir onu müharibəyə meylsizliyinə görə tənqid etmişdir O demişdi: "Əslində bu iradın heç bir məntiqi asası yoxdur, çünki böyük ehtimalla baş verə biləcək ikinci "Çaldıran" səfəvi dövlətin süqutuna səbəb ola bilərdi". Şah Təhmasib Səfəvi dövlətinin stabilləşməsinə nail oldu, yerli sülalə hakimiyyətləriniə, Şirvan, Gilan va Qəndəhəri Səfəvi dövlətinin tərkibinə daxil etdi. Şərabxorluqdan xoşlanmadığı üçün meyxanaların bağlanmasına göstəriş verdi.

Ömrünün sonlarında bir sıra mühüm dövlətçilik işlərini əmirlərə tapşırdı. Qeyd olunan bu tədbir bir çox əmir və hakimlərin işlərində sui-istifadələrə səbəb oldu. Amasiya sülhündon sonra Təhmasibin yürütdüyü düzgün siyasət nəticəsində kənd təsərrüfatı və iqtisadiyyat inkişaf etdi və nəticədə şəhərlər abadlaşdı, əhali xeyli artdı. Atası İsmayılın yüksək səviyyədə qəbul etdiyi qanun cəmiyyətdə asanlıqla qəbul edildi.

O.Əfəndiyev Şah Təhmasibin şəxsiyyəti haqqında maraqlı tədqiqatlar aparmışdır. Bu haqda o, yazır: "Gənc Təhmasib elmlərə müvəffəqiyyətlə yiyələnmiş, qısa vaxtda müsəlman hüququnun va adi hüququn bütün incəliklərinə bələd olmuşdur... Artıq iyirmi yaşında həddi-buluğa çatmış Təhmasib dövlət işlərini özü həll edirdi. . [3.s.1144]

Bu təvəllüd tarixi əmir Nəcminin qətlə yetirilməsi, özbək sultanlarının istilası və Amudərya çayını keçmələri xəbərinin gəlməsi ilə eyni vaxta düşürdü (l, 78).

Təhmasib Mirzanin adına daha sonra 921 (1515/16) - ci ilin sonlarında Xorasanda qıtlıq baş veməsindən danışıldığı vaxta təsadüf edirik: "921-ci ilin sonları Qain vilayətinin hakimi əmir xan Mosullu və Div Sultan Balx Şah İsmayılın sarayına getdilər. Əmir Orduşahınə Caqçaran vilayətindəki özbaşnalıqla bağlı məlumat verdilər.

Xorasan va ətraf ərazilərdəki çəkişmələrə son qoymaq üçün şah bu ərazilərə naiblər təyin etdi. O, Semnan va Damğandan Amudərya sahillərinə qədər olan Xorasan əyalətinin xilafatin gözünün işığı olan Təhmasibə verilməsi haqqında və, əmir xan Mosullunun onun lələsi təyin edilməsi habelə, vəzirlik vəzifəsinin əmir Məhəmməd Yusifə verilmasi ilə bağlı fərman imzaladi".[5.s.116]Əmir Mahmud Təhmasibin taxta çıxmasını da o öz əsərində təsvir etmişdir: "Şah İsmayılın

günortaya doğru vəfatından sonra Div Sultan və Köpük Sultan şahın vəsiyyətinə əsasən Təhmasibi taxta oturdub, başına tac qoydular.

Şah Təhmasib hakimiyyəti möhkəmləndirmək işi bundan sonra başlayır. Qeyd edək ki, bu məlumat digər mənbələrlə üst-üstə düşür.

Şah Təhmasibin hakimiyyətinin ilk illəri formal xarakter daşıyırdı. On yaşlı oğlan dövlat vəzifələri, zəngin və məhsuldar torpaqlar almaq uğrunda mübariza aparan qızılbaş tayfa amirlərinin əlində oyuncağa çevrildi. Dövlət işləri üzərində nəzarəti rumlu tayfasının rəhbəri, I Tahmasibin lələsi Sultan ələ keçirdi.[6.s.265]

Lakin ustaclı tayfasının Köpük Sultan va Abdulla xan kimi qüdrətli əmirləri onun hakimiyyatinin güclənməsinə yol vermirdilər. Təbrizdə əyanların çıxış edəcəyindən qorxan Div Sultan Xorasana basqanını dəf etmək bəhanəsi ilə paytaxtdan çıxdı va guya xarici düşmənə qarşı qoşun toplamaq üçün Təbaristanla sərhəddə yerləşən Lar yaylağına yola düşdü.

İsfahan hakimi Çuha Sultan Takali, Həmadan hakimi Qaraca Sultan Təkəli, Məşhad hakimi Bunın Sultan, Şiraz hakimi Oli Sultan Zülqədar və başqaları onun çağırışı ilə qoşunlarla bura gəldilər. Div Sultana vədlər verməklə onları öz tərəfinə çəkdi.

Obhardanı keçərək Taroma — Rəşt hakimi Müzəffər Sultanın yanına gəldilər. Həmin vaxtda mərhum Qara xanın oğlu Abdulla xan Ustaclı Kirman hakimi Əhməd Sufıoğlu Ustaclı ilə birlikdə rumlu və təkəli tayfalarına qarşı çıxdı və Xarzavil adlı yerdə onların arasınada döyüş baş Verdi və gilanlıların köməyinə baxmayaraq, ustaclılar yenidən ağır məğlubiyyətə uğradılar.

Məqalədə elmi yenilik ilk dəfə olaraq Şah Təhmasibin hakimiyyətinin təşəkkülündən, möhkəmlənmə formasından, , daxili üsyanlar və çəkişmələrindən, xarici hücumlarından müfəssəl bəhs edilməsindən söhbət açılmasıdır..

## İstifadə edilmiş ƏDƏBİYYAT:

1. Xandəmir əmir Mahmud: "Şah İsmayıl və Şah Təhmasib Səfəvi tarixi Məhəmməd ali Cərrahinin redaktəsi, Tehran, 1370, 301 s.

2.İsgəndər bəy Türkman:"Abbasilər hakimiyyətinin tarixi"I-ci cild.fars d.1560.səh:135. 3.Ş.F.Fərzəliyev: "İncil".Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2010 il, 1144 səh.

4.Əfəndiyev O.O. "Azərbaycan Səfəvilər dövləti". Bakı: "Nurlan"nəşr., 1993, 300 s.

5.Manuçehr əmiri:"Venesiyalıların İran-Sofa memuarları".II çap. Tehran 1381.səh:116.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 300-304*

**S.Imamova**

## SOCIAL AND POLITICAL SITUATION IN AZERBAIJAN IN THE MIDDLE AGES, DEVELOPMENT OF LITERATURE, ART AND CULTURE

**Summary**

The article has been dedicated to the stüdy of public-political situation in period of reign of Shah Tahmasp I. The research work presents us historical panorama of the period. Among these sources, Amir Mahmoud Khandemir's work "Zeyl-e tarikh-e Habis-us siyar" has also been included in the study. The main inspirational force of Azerbaijani culture is the Azerbaijani people and the ideology of Azerbaijanism. Over the millennia, our culture has done a great deal of work to ensure that the ideology of Azerbaijanism is rooted in our consciousness and memory. Azerbaijanism is manifested in all aspects of our culture. Azerbaijani culture has gone through a long historical path of development and has reached our days. National and spiritual values, material samples are improved from time to time and are accepted as the most elegant and exciting examples of culture in the world.

**Key words: state, socio-political situation, history, source, devlopment**

**С.Имамова**

## ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЕ ПОЛОЖЕНИЕ В АЗЕРБАЙДЖАНЕ В СРЕДНЕВЕКОВЬЕ, РАЗВИТИЕ ЛИТЕРАТУРЫ, ИСКУССТВА И КУЛЬТУРЫ

**Резюме**

Главной вдохновляющей силой азербайджанской культуры является азербайджанский народ и идеология азербайджанства. На протяжении тысячелетий в рамках нашей культуры проделывалась огромная работа по обеспечению того, чтобы идеология азербайджанства укоренилась в нашем сознании и памяти. Азербайджанскость проявляется во всех аспектах нашей культуры. Азербайджанская культура прошла большой исторический путь развития и дошла до наших дней. Национальные и духовные ценности, материальные образцы время от времени совершенствуются и принимаются как самые элегантные и захватывающие образцы культуры в мире.

Статья посвящена изучению общественно-политической в период правления шаха Тахмаспа I. Исследовательская работа дает нм историческую панораму периода. Среди этих источников в исследование также был включен труд Амира Махмуда Хандемира «Зейл-е тарих-е Хабис-ус сийар».

.**Ключевые слова: государство, общественно-политическая ситуация, история, источник, развитие.**

**Rəyçi: filologia üzrə fəlsəfə doktoru,dosent Həbib Mirzəyev**